***ARXEOLOGİYA VƏ ETNOQRAFİYA***

https://doi.org/10.59849/3006-1342.2025.3.114
UOT 94(479.24)

*Samirə Əliağa qızı Qasımova*
*AMEA Gəncə Bölməsi*
*ADAU, İctimai fənlər kafedrası*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: samira.qasimova82@mail.ru*
*Orcid: 0000-0002-8736-3909*
*Könül Vəkil qızı İsayeva*
*AMEA Gəncə Bölməsi*
*Böyük laborant*
*E-mail: isayevakonul78@gmail.com*

# AZƏRBAYCANIN XALQ SƏNƏTKARLIĞI VƏ DEKORATİV TƏTBİQİ SƏNƏTİ GƏNCƏ NÜMUNƏSİNDƏ

*Azərbaycan mədəniyyətinin inkişaf tarixində xalq sənətkarlığı və dekorativ-tətbiqi sənət xüsusi yer tutur. Qədim dövrlərdən etibarən formalaşan sənətkarlıq ənənələri xalqın həyat tərzini, dünyagörüşünü və estetik zövqünü əks etdirmişdir. Xüsusilə Gəncə bölgəsi zəngin sənətkarlıq nümunələri ilə seçilir. Burada toxuculuq, xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və ağacişləmə kimi sahələr inkişaf etmiş, hər biri özünəməxsus üslub və texniki xüsusiyyətləri ilə fərqlənmişdir. Sənətkarlıq nümunələrinin həm məişət, həm də bədii-estetik funksiyaları cəmiyyətin sosial-mədəni həyatına təsir göstərmişdir. Gəncə nümunəsində xalq sənətkarlığının tədqiqi Azərbaycanın mədəni irsinin davamlılığını və onun gələcək nəsillərə ötürülməsinin zəruriliyini göstərir. Orta əsrlərdə şəhərdə fəaliyyət göstərən sənətkarlar təkcə yerli bazara deyil, həm də Yaxın Şərq ölkələrinə məhsul ixrac etmişlər. Bu səbəbdən Gəncə sənətkarlığı təkcə Azərbaycan mədəniyyətinə deyil, həm də dünya mədəni irsinə töhfə vermişdir.*

*Açar sözlər:* Azərbaycan, xalq sənətkarlığı, dekorativ tətbiqi sənət, Gəncə, kompozisiya quruluşu, ornament, bədii xüsusiyyətlər

Azərbaycan mədəniyyəti minilliklər boyu formalaşmış zəngin tarixi irsə malikdir. Bu irsin mühüm tərkib hissəsini xalq sənətkarlığı və dekorativ tətbiqi sənət təşkil edir. Azərbaycan xalq sənətkarlığı yalnız məişət tələbatlarını ödəməklə kifayətlənməyib, həm də milli-mədəni kimliyin ifadə vasitəsinə çevrilmişdir. Sənət nümunələrində istifadə olunan ornamentlər, naxışlar və simvollar xalqın dünya görüşünü, dini inanclarını, bədii-estetik zövqünü əks etdirmişdir. Arxeoloji qazıntılar göstərir ki, artıq ibtidai icma cəmiyyətinin neolit, eneolit və tunc dövrlərində ölkə ərazisində müxtəlif sənət sahələri formalaşmışdır.

Azərbaycanın qədim şəhərlərdən biri olan Gəncə də əsrlər boyu sənətkarlıq mərkəzi kimi tanınmış və Qafqazın ən mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Şəhərdə xalçaçılıq, misgərlik, dulusçuluq, ağac oymaçılığı, zərgərlik kimi qədim sənət növləri yüksək səviyyədə inkişaf etmiş və əhalinin məişətində əsas yer tutmuşdur. Gəncə və onun ətraf ərazilərində arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş müxtəlif bəzək əşyaları, keramika nümunələri və metallurgiya izləri bölgənin hələ qədim dövrlərdə sənətkarlıq mərkəzlərindən biri olmasını sübuta yetirir [5, s. 112].

Orta əsrlər Azərbaycan mədəniyyətinin çiçəkləndiyi dövrdə dekorativ tətbiqi sənət, eləcə də memarlıq özünün ən yüksək mərhələsinə çatmışdır. XI–XII əsrlərdə Eldənizlər dövründə sənətkarlıq mərkəzləri genişlənmiş, xüsusilə də şəhər mədəniyyətinin inkişafı ilə sənətkarlıq yeni bir səviyyəyə qalxmışdır. Dekorativ tətbiqi sənətin incə nümunələri daş oyma, keramik dekor və metal üzərində işlənmiş naxışlarda özünü göstərirdi [9, s. 88].

Gəncə şəhəri isə bu dövrdə nəinki Azərbaycanın, eləcə də Qafqazın ən böyük mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. XI əsrdə Şəddadilər dövründə paytaxt şəhəri kimi daha da güclənmiş Gəncə, ölkənin siyasi, iqtisadi və mədəni həyatında mühüm əhəmiyyətli şəhərə çevrilmişdir. 1063-cü ildə Şəddadi hökmdarı Əbüləsvar Şavurun göstərişi ilə Gəncədə dəmirçi İbrahim Osmanoğlu tərəfindən hazırlanmış qala qapıları orta əsrlərdə Azərbaycanda dəmirçilik sənətinin səviyyəsini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Darvazanın çərçivəsi döymə üsulu ilə hazırlanaraq, dəmir qollar çərçivəyə köndələn vəziyyətdə bərkidilmişdir.

XII əsrdə yaşamış böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərlərində də şəhər əhalisinin sənətkarlıq mədəniyyətinə, incəsənətə, zərgərlik sənətinə dair çoxsaylı təsvirlərə rast gəlinir. Bu fakt Nizami dövründə Gəncənin sənətkarlıq baxımından yüksək inkişaf etmiş bir şəhər olduğunu göstərir [4, s. 203].

Orta əsrlərdə Gəncədə fəaliyyət göstərən misgərlər, dulusçular, dəmirçilər və xalça toxucuları təkcə yerli bazara deyil, həm də Qafqaz, Orta Asiya və Yaxın Şərq ölkələrinə məhsul ixrac edirdilər. Bu isə təbii ki, şəhərin iqtisadi və mədəni həyatında sənətkarlığın əhəmiyyətli yer tutduğunu göstərir [11, s. 134].

Qeyd edək ki, XVI–XVIII əsrlərdə Azərbaycanda sənətkarlıq daha da inkişaf etmişdir. Səfəvilər dövründə xalq sənətkarlığı dövlətin mədəniyyət siyasətinin bir hissəsinə çevrilmişdir. Xalçaçılıq məktəblərinin təşəkkül tapması, zərgərlik və misgərlik sənətinin güclənməsi, dulusçuluq mərkəzlərinin fəaliyyət göstərməsi bunun bariz nümunəsidir [6, s. 77].

Bəhs edilən dövrdə “Gəncə xalça məktəbi” formalaşmış və özünəməxsus naxışları ilə seçilmişdir. Azərbaycanda xalçaçılıq sənətinin inkişafında Gəncə xalçaçılıq məktəbinin öz yeri vardır. Tarixə nəzər salsaq görərik ki, hələ qədim zamanlardan Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur [7, s.51]. Xalçalarda əsasən həndəsi ornamentlər, bitki və zoomorfik motivlərdən istifadə olunurdu. Bu xalçalar yüksək keyfiyyəti və rəng çalarları ilə seçildiyinə görə Şərq bazarlarında böyük şöhrət qazanmışdır [1, s. 52].

XIX əsrdə Gəncə xalçaları Şamaxı, Tiflis və Həştərxan bazarlarına çıxarılırdı. Avropa muzeylərində də saxlanılan Gəncə xalçaları bu sənətin beynəlxalq miqyasda tanındığını göstərir [1, s. 101]. Heç də təsadüfi deyildir ki, Gəncəbasarda deyil, bütün Azərbaycanda xalçaçılıq sənəti qədim ənənələrə söykənir və xalça Azərbaycan xalqının məişətinin ayrılmaz hissəsi olmaqla yanaşı, həm də onun bədii-estetik dünyagörüşünü əks etdirən sənət nümunəsidir.

Gəncə sənətkarlığının mühüm istiqamətlərindən biri misgərlik olmuşdur. Gəncə misgərləri yüksək peşəkarlıqları ilə seçilirdilər. Şəhərdə fəaliyyət göstərən ustalar məişət əşyaları (qazan, cam, sini, məcməyi, çıraq) hazırlayaraq onların üzərinə ornamental naxışlar həkk etmişlər. Bu naxışlarda çox vaxt stilizə olunmuş bitki motivləri və həndəsi formalar üstünlük təşkil etmişdir [11, s. 117]. XVIII əsrdə Gəncədə misgərlik sənəti də daha da inkişaf etmiş, ustalar mis qazanlar, camlar, ləyənlər və digər məişət əşyaları hazırlayaraq onların üzərini dekorativ naxışlarla bəzəyirdilər. Bu naxışlar həm bədii zövqün ifadəsi idi, həm də həmin dövrün sosial-mədəni mühitini əks etdirirdi [10, s. 61]. Mis əşyalar həm məişətdə, həm də dini mərasimlərdə istifadə olunurdu.

Gəncədə geniş yayılmış dekorativ tətbiqi sənət növlərindən biri də dulusçuluq olmuşdur. Şəhər ətrafında yerləşən gil yataqları keramika istehsalı üçün əlverişli şərait

yaratmışdır. Müxtəlif dövrlərdə aparılan arxeoloji tədqiqatlar bölgədə hələ daş dövründən başlayaraq insanların gil qablardan istifadə etdiyini göstərir. Buna 1938-1941-ci illərdə Y.İ.Hummelin Gəncəçay vadisində Gillikdağda 78 saylı çaxmaqdaşı emalatxanasında apardığı tədqiqatlardan aşkar olunmuş materialları misal göstərmək mümkündür.

Gəncə şəhərində aparılan qazıntılar zamanı ilk orta əsrlər dövrünə aid "Dulusçular" məhəlləsinin yerləşdiyi yer müəyyən edilmiş və Gəncə dulusçularının yüksək keyfiyyətli, müxtəlif çeşidli qablar istehsal etdiyi aşkar olunmuşdur. Şəhərdə "Dulusçular" məhəlləsinin formalaşması artıq təmərküzləşmənin mövcud olması, bu sənətlə məşğul olan sənətkarların peşəkarlıqlarının yüksəlməsi və müvafiq olaraq ixtisaslaşmanın güclənməsi ilə səciyyələnir. Gəncə dulusçularının hazırladığı saxsı qablar sadə məişət tələbatı ilə yanaşı, həm də yüksək estetik dəyərə malik idi. Bu qabların üzərinə bəzən qırmızı, yaşıl və qara rəngli ornamentlər vurulurdu [5, s. 89].

Müxtəlif vaxtlar şəhərdə aparılmış arxeoloji qazıntılar nəticəsində XVI–XVII əsrlərə aid rəngli saxsı qablar, su üçün küplər, bəzək əşyaları aşkar edilmişdir. Bu nümunələr Gəncə ustalarının həm məişət tələbatını ödədiyini, həm də bədii zövqü ifadə etdiyini göstərir [5, 2004, s. 76]. Saxsı qabların üzərindəki naxışlar yalnız bədii zövqü əks etdirmir, həm də qədim insanların dünyagörüşü, dini inancları və məişət həyatını simvolizə edirdi [3, s. 56].

Ağac oymaçılığı isə daha çox məscid, türbə, mədrəsə və evlərin qapı-pəncərə çərçivələrində özünü göstərmişdir. Gəncə ustalarının hazırladığı qapı və şəbəkələr bədii zənginliyi ilə seçilir. Şəbəkə texnikası xüsusilə Gəncə memarlığında mühüm yer tutmuşdur [4, s. 242]. XVI-XVII əsrlərdən dövrümüzə qədər şəbəkəçilik sənətinin iki gözəl nümunəsi gəlib çatmışdır ki, bunlardan biri Qusar bölgəsinin Həzrə kəndindəki Şeyx Cüneydin (Şah I İsmayılın babası) türbəsindəki sənduqə, o birisi isə Gəncədə Cümə məscidinin minarəsidir. Şeyx Cüneydin qəbri üstdə qoyulmuş sənduqə çox böyük deyildir. Onun uzunluğu 2,12 m, eni 1,20 m, hündürlüyü 1,25 m-dir. Böyük çərçivələrdə ardıcıl taxılmış 52 ədəd kiçik, dördkünc şəbəkə kompozisiyaları bu sənduqənin əsas bəzəyini təşkil edir. Şəbəkələrin ornament motivləri dördbucaqlı ulduz və çoxbucaqlı həndəsi xonçalardan ibarətdir. Əgər Şeyx Cüneyd sənduqəsinin şəbəkə bəzəklərinin əsas xüsusiyyətlərindən biri onun birüzlü olmasıdırsa, Cümə məscidindəki minbərin şəbəkələri ikiüzlüdür. Bu sənət əsərində biz ilk dəfə olaraq bu qədər zəngin və müxtəlif növlü şəbəkə kompozisiyalarına rast gəlirik. 8-12 bucaqlı ulduzlar, çoxbucaqlı həndəsi xonçalar, rombvari naxışlar və s. kompozisiyalar bu sənət əsərinin bəzəyidir [2, s. 162]. .

Bundan başqa şəhər əhalisinin məişətində işlədilən kasa, tabaq, təhnə, sandıq, mücri, qaşıq, güldanlar, dolçalar, qəddanlar, nərd taxtaları, eləcə də saz, tar, kamança kimi musiqi alətləri ağacişləmə sənətinin bariz nümunələri hesab olunur.

Gəncə Azərbaycanın qədim tarixə malik olan zərgərlik sənətinin inkişafında da mühüm rol oynamışdır. Burada fəaliyyət göstərən sənətkarlar tarixən qızıl və gümüşdən hazırladıqları zinət əşyaları ilə tanınmışdır. Gəncədə, orta əsr şəhərinin yerində aparılan arxeoloji qazıntılar zamanı tapılmış çoxlu zərgərlik sənəti nümunələri (həm də məişət əşyaları) və zərgərlik sənəti məhsullarının çeşid çoxluğu şəhər ustalarının yüksək sənətkarlığını göstərir. Tədqiqatlar nəticəsində əldə edilmiş və əsasən möhürləmə üsulu ilə işlənmiş bəzək şeyləri öz sadə formasına görə diqqəti cəlb edir. Kiçik şara bərkidilmiş halqa şəkilli sırğalar, əqiq qaşlı, qaş yeri qıvrım naxışla möhürlənmiş üzüklər bu dövrə aid edilən zərgərlik sənəti nümunələrindəndir [2, s. 82]. Təbii ki, Gədəbəy, Kəlbəcər, Qazax bölgələrində əqiq yataqlarının olması, Gəncədə əqiq qaşlardan bir xammal kimi istifadə etməyə imkan vermişdir.

Şəhər ustalarının zərgərlikdə istifadə edilən döymə, basma, qarasavad, şəbəkə kimi istehsal üsullarından istifadə edərək hazırladıqları bəzək nümunələri əhalinin rəğbətini qazanırdı [8, s.107]. Burada qızıl və gümüşdən hazırlanmış sırğalar, üzük, bilərzik, kəmər və

digər bəzək əşyaları yüksək incəliklə işlənmişdir. XIX əsrdə Gəncə zərgərləri tərəfindən hazırlanan bəzək əşyaları Qafqaz və Yaxın Şərq bazarlarında satılırdı. Bəhs olunan dövrdə Gəncə zərgərlərinin hazırladığı kəmər və gümüş qınlı xəncərlər Qafqazda böyük şöhrət qazanmışdır [10, s. 143]. Zinət əşyalarında istifadə olunan buta, günəş və ulduz motivləri xalqın estetik və fəlsəfi düşüncəsini əks etdirirdi [4, s. 225].

Xalq sənətkarlığı yalnız dekorativ məqsəd daşımamış, həm də insanların gündəlik həyatını asanlaşdırmışdır. Məişət əşyaları həm praktik funksiyaları, həm də estetik görünüşü ilə fərqlənmişdir. Gəncədə hazırlanmış qab-qacaq, xalça, pərdə, qapı, mebel və digər əşyalar bir tərəfdən gündəlik ehtiyacları ödəyirdi, digər tərəfdən isə evlərin bədii tərtibatını təmin edirdi. Bu, xalq sənətkarlığının estetik və praktik funksiyasının vəhdətini nümayiş etdirir [6, s. 83].

Azərbaycan dekorativ tətbiqi sənətinin əsas xüsusiyyətlərindən biri ornamentlərin zənginliyi və simvolik məna daşımasıdır. Ornamentlər təkcə bədii element olmayıb, həm də xalqın fəlsəfi dünyagörüşünün ifadəsidir. Buta – Azərbaycan dekorativ sənətində ən geniş yayılmış motivdir. O, məhsuldarlığı, həyatı və bərəkəti simvolizə edir. Xüsusilə Gəncə xalçaçılığında buta motivləri geniş istifadə olunmuşdur. Həndəsi ornamentlər – nizam-intizamı, kainatdakı harmoniyanı əks etdirir. Bitki motivləri – təbiətin əbədiliyini, həyatın davamlılığını simvolizə edir. Zoomorfik təsvirlər – quşlar, maral, at fiqurları xalqın mifoloji təsəvvürlərini və qəhrəmanlıq ruhunu ifadə edir [9, s. 113]. Qeyd edək ki, Gəncə sənətkarlığında bu motivlər xalçalarda, eləcə də misgərlik, zərgərlik və ağac oymaçılığında özünü göstərmişdir.

Azərbaycan dekorativ sənətində rənglərin xüsusi məna yükü vardır. Rənglər xalqın psixoloji, dini və fəlsəfi düşüncəsini əks etdirir. Qırmızı – sevgi, güc və həyat enerjisi, Göy – səma, əbədiyyət və ilahi qüvvə, Yaşıl – bolluq, təbiət və İslam dini ilə bağlılıq; Sarı – işıq, günəş və şənlik rəmzi; Qara – qəhrəmanlıq və eyni zamanda hüzn simvolu [4, s. 217] idi. Gəncə xalçalarında və dekorativ sənət nümunələrində bu rənglərin uyğun kombinasiyası həm estetik gözəllik yaratmış, həm də dərin məna ifadə etmişdir.

Gəncədə sənətkarlıq ənənələri çox vaxt ailə daxilində qorunurdu. Ustalıq nəsildən-nəslə ötürülür, hər bir ailənin özünəməxsus iş üslubu formalaşırdı. Bu ənənə Gəncə mədəniyyətində sənətkarlığın davamlılığını təmin etmişdir. Bu gün Gəncədə mədəni irsin qorunması, müxtəlif sənətkarlıq sahələrinin inkişaf etdirilməsində dövlət dəstəyi əhəmiyyətli yer tutur. 1991-ci ildən sonra Azərbaycanın müstəqilliyi bərpa olunması ilə xalq sənətkarlığına maraq yenidən artdığından dövlət tərəfindən sənətkarlığın qorunması və inkişafı məqsədilə müxtəlif layihələr həyata keçirilməyə başlandı. Gəncədə xalçaçılıq emalatxanaları, dekorativ sənət sərgiləri, ustad dərsləri təşkil olunaraq gənc nəsillərin bu sahəyə marağı artırıldı. Gəncədə xalçaçılıq, misgərlik, zərgərlik və ağac oymaçılığı kimi ənənəvi sənət növləri dirçəldi.

Bütövlükdə araşdırmalar göstərir ki, Azərbaycan mədəniyyətinin inkişaf tarixində xalq sənətkarlığı və dekorativ tətbiqi sənət xüsusi yer tutur. Minilliklər boyu formalaşan bu sənət ənənələri xalqın məişət tələbatlarını ödəməklə yanaşı, onun bədii-estetik dünyagörüşünü, dini inanclarını və fəlsəfi baxışlarını əks etdirmişdir. Gəncə şəhəri bu mədəniyyətin ən mühüm mərkəzlərindən biri olmuşdur. Qədim dövrlərdən başlayaraq burada xalçaçılıq, misgərlik, dulusçuluq, zərgərlik və ağac oymaçılığı yüksək səviyyədə inkişaf etmişdir. Müasir dövrdə Gəncə sənətkarlarının hazırladığı məhsullar sərgilərdə, festivallarda nümayiş olunur, gənclər üçün tədris kursları təşkil edilir, beynəlxalq səviyyədə tanıdılır. Bütün bunlar bir daha sübut edir ki, xalq sənətkarlığı Azərbaycan mədəniyyətinin milli identikliyinin əsas daşıyıcısıdır. Onun qorunması və inkişaf etdirilməsi yalnız keçmişin mirasını yaşatmaq deyil, həm də gələcək nəsillərə milli kimliyi ötürmək deməkdir.

Beləliklə, Gəncə xalq sənətkarlığı həm Azərbaycanın, həm də dünya mədəniyyətinin zəngin bir hissəsidir. Bu ənənələrin yaşadılması və təbliği gələcəkdə də milli mədəniyyətimizin inkişafı üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.

ƏDƏBİYYAT


1. Aslanova G. Azərbaycan xalça məktəbləri. Bakı: Mədəniyyət, 2002.
2. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, Şərq-Qərb, 2007, 160 s. + 112 səh. (illüst.)
3. Əliyev İ. Azərbaycanın qədim mədəniyyəti. Bakı: Yazıçı, 1991.
4. Əliyeva S. Azərbaycan dekorativ sənətində ornamentlərin simvolikası. Bakı: Şərq-Qərb, 2015.
5. Hüseynov M. Gəncə bölgəsinin arxeoloji abidələri. Bakı: Nurlan, 2004.
6. Kərimov A. Azərbaycan xalq sənətkarlığının inkişaf mərhələləri. Gəncə: GDU nəşriyyatı, 1998.
7. Qasımova S.Ə. Gəncə xalçaçılıq məktəbinin inkişaf tarixindən. AMEA Gəncə Bölməsi "Xəbərlər məcmuəsi, İctimai və humanitar elmlər seriyası 10, №2. Gəncə, 2024.
8. Qasımova S.Ə. Gəncə zərgərlik sənətinin inkişafı və istifadə olunan bəzi istehsal üsulları haqqında. AMEA Gəncə Bölməsi "Xəbərlər məcmuəsi, İctimai və humanitar elmlər seriyası №2 (12). Gəncə, 2025.
9. Mahmudov Y. Azərbaycan tarixi və mədəniyyəti. Bakı: Çaşıoğlu, 2010.
10. Məmmədov T. Xalq sənətkarlığı və tətbiqi incəsənət. Bakı: Elm və Təhsil, 2011.
11. Salayev H. Azərbaycan şəhərlərində sənətkarlıq ənənələri. Bakı: Qanun, 2009.


УДК 94(479.24)

*Самира Алиага кызы Гасымова*
*Гянджинское отделение НАНА*
*АГАУ Общественных дисциплин,*
*Кенуль Векил кызы Исаева*
*Гянджинского отделения НАНА*

## НАРОДНОЕ РЕМЕСЛО И ДЕКОРАТИВНО-ПРИКЛАДНОЕ ИСКУССТВО АЗЕРБАЙДЖАНА НА ПРИМЕРЕ ГЯНДЖИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, народные ремёсла, декоративно-прикладное искусство, Гянджа, композиционная структура, орнамент, художественные особенности

Народные ремёсла и декоративно-прикладное искусство занимают особое место в истории развития азербайджанской культуры. Формирующиеся с древнейших времён традиции ремёсел отражали образ жизни, мировоззрение и эстетические вкусы народа. Гянджинский регион, в частности, отличается богатством образцов ремёсел. Здесь получили развитие такие направления, как ткачество, ковроткачество, ювелирное дело, медное дело, гончарное дело и деревообработка, каждое из которых отличается своим неповторимым стилем и техническими особенностями. Как бытовая, так и художественно-эстетическая функции ремёсел оказывали влияние на социально-культурную жизнь общества. Изучение народных ремёсел на примере Гянджи показывает преемственность культурного наследия Азербайджана и необходимость его передачи будущим поколениям. В средние века ремесленники, работавшие в городе,

экспортировали свою продукцию не только на местный рынок, но и в страны Ближнего Востока. Таким образом, гянджинское ремесло внесло свой вклад не только в азербайджанскую культуру, но и в мировое культурное наследие.

UDC 94(479.24)

*Samira Aliaga Gasimova*
*Ganja Branch of ANAS*
*ASAU, Department of Social Sciences,*
*Konul Vakil Isayeva*
*Ganja Branch of ANAS*

## AZERBAIJAN'S FOLK CRAFTS AND DECORATIVE APPLIED ARTS ON THE EXAMPLE OF GANJA

*SUMMARY*

*Keywords:* Azerbaijan, folk crafts, decorative applied arts, Ganja, compositional structure, ornament, artistic features

Folk crafts and decorative and applied arts occupy a special place in the history of the development of Azerbaijani culture. The traditions of crafts that have been formed since ancient times have reflected the lifestyle, worldview, and aesthetic taste of the people. The Ganja region, in particular, is distinguished by its rich examples of crafts. Here, such areas as weaving, carpet weaving, jewelry, coppersmithing, pottery, and woodworking have developed, each of which is distinguished by its unique style and technical characteristics. Both the everyday and artistic-aesthetic functions of crafts have influenced the socio-cultural life of society. The study of folk crafts on the example of Ganja shows the continuity of Azerbaijan's cultural heritage and the necessity of its transmission to future generations. In the Middle Ages, artisans operating in the city not only supplied products to the local market but also exported them to the countries of the Middle East. Therefore, Ganja craftsmanship contributed not only to Azerbaijani culture but also to the world's cultural heritage.

***Daxil oldu: 19.11.2025-ci il***